AZƏRBAYCAN XƏBƏRLƏRİ

# Şəkidə kanatın trosu qırılıb, iki nəfər ölüb

indicə




Kanat qurğusu (Foto illüstrasiya)

Sentyabrın 8-də Şəki rayonundakı istirahət mərkəzlərinin birində bədbəxt hadisə baş verib, iki nəfər ölüb.

İlkin məlumata görə, mərkəzdəki əyləncə qurğusunun (kanatın) trosu qırılıb və iki nəfər hündürlükdən yıxılaraq həyatını itirib.

Faktla bağlı araşdırma aparılır.

Hələlik məsələyə istirahət mərkəzinin rəhbərliyindən və ölənlərin yaxınlarından münasibət almaq mümkün olmayıb.

Bu, ölkədəki istirahət yerlərində baş verən ilk belə hadisə deyil. Əvvəllər də oxşar qəzalarda ölənlər olub.

Digər tərəfdən, bəzi ekspertlərin qənaətinə görə, istintaq zamanı faciəni doğuran real səbəblərin üstündən çox vaxt sükutla keçilir.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur